STATE SERVICE ON PROPERTY ISSUES
UNDER THE MINISTRY OF ECONOMY
OF THE REPUBLIC OF AZERBAIJAN

# R E P O R T

*(Azerbaijani version)*

**January, 2023**

# MÜNDƏRİCAT

1. Dövlət əmlakının özəlləşdirilməsi və investisiyaların cəlb edilməsi sahəsində...........2

2. Dövlət əmlakının idarə edilməsi və ondan səmərəli istifadəyə nəzarət sahəsində ....4

3. Dövlət əmlakının icarəyə verilməsi və dövlət ehtiyaclarının ödənilməsi sahəsində....5

4. Torpaqların idarə edilməsi, torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi sahəsində.........................................................................7

5. Normativ hüquqi tənzimləmə, dövlət proqramlarının və strategiyaların icrası sahəsində..................................................................................................10

6. Hərracların təşkili sahəsində........................................................................................11

7. Daşınmaz əmlakın dövlət kadastrı və hüquqların dövlət qeydiyyatı, ünvan reyestrinin aparılması ahəsində.........................................................................13

8. İşğaldan azad edilmiş ərazilərdə görülmüş tədbirlər barədə....................................17

9. Elektron xidmətlər və innovasiyaların tətbiqi sahəsində...........................................19

10. Beynəlxalq əməkdaşlıq sahəsində........................................................................ 21

11. Xidmətin digər fəaliyyətlər və təşkilati-idarəetmə sahəsində..................................21

12. Tabeli qurumların gəlir və xərcləri barədə əlavə...................................................24

2022-ci il ərzində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti (bundan sonra – Xidmət) tərəfindən Əsasnaməsi ilə dövlət əmlakının idarə edilməsi, onun özəlləşdirilməsi, daşınmaz əmlakın dövlət reyestrinin və daşınmaz əmlakın vahid dövlət kadastrının tərtibi və aparılması, ünvan reyestri, dövlət torpaq kadastrı, yerquruluşu, torpaqların dövlət idarəetməsi, torpaq bazarının təşkili, torpaqlardan istifadəyə və onların mühafizəsi sahələrində müəyyən edilmiş vəzifələrin, habelə normativ hüquqi aktlarla və yuxarı dövlət orqanları tərəfindən verilmiş tapşırıqların, o cümlədən ölkəmizin işğaldan azad edilmiş ərazilərinin bərpası və quruculuğu ilə bağlı aidiyyəti tədbirlərin icrasına prioritet verilməklə müvafiq işlər görülmüşdür.

**Dövlət əmlakının özəlləşdirilməsi və investisiyaların cəlb edilməsi sahəsində**

2022-ci il ərzində dövlət əmlakının özəlləşdirilməsi sahəsində tədbirlər davam etdirilmiş, özəlləşdirmədən dövlət büdcəsinə 115.4 mln. manat həcmində vəsait daxil olmuşdur ki, bununla da illik büdcə proqnozunun icrası 101.2 faiz həcmdə təmin edilmişdir.

.




**2022-ci il üzrə proqnozun icrası: 101.2**%;

Bu dövrdə 1095 kiçik dövlət əmlakı özəlləşdirilmişdir.

Hesabat dövründə özəlləşdirmə prosesi ilə bağlı 3 dövlət müəssisəsinin təşkilati-hüquqi forması dəyişdirilərək açıq səhmdar cəmiyyətinə və məhdud məsuliyyətli cəmiyyətə çevrilmişdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyətinin özəlləşdirməyə açılmış müəssisə və obyektlərinin özəlləşdirməyə hazırlanması məqsədilə əmlaklarının inventarlaşdırılması və qiymətləndirilməsi işləri aparılmış, onların özəlləşdirilməsinə potensial investorların (alıcıların) cəlb edilməsi ilə əlaqədar müvafiq tədbirlər görülmüşdür. Korporasiyanın özəlləşdirməyə açılmış 29 müəssisə və obyektindən indiyədək 6-sının özəlləşdirilməsi təmin edilmiş, 7-si isə hərraca çıxarılmışdır.

Hesabat ilində investisiya müsabiqəsi vasitəsilə özəlləşdirilməsi nəzərdə tutulan 3 müəssisə investisiya müsabiqəsinə çıxarılmış və həmin müsabiqələr baş tutmuşdur. Müsabiqələrdə qalib gəlmiş investorlar tərəfindən ümumilikdə, dövlət büdcəsinə 12 mln. manata yaxın vəsaitin köçürülməsi öhdəliyi götürülmüş, investisiya proqramı çərçivəsində özəlləşdirilən müəssisələrə 30 mln. manata yaxın investisiya qoyuluşu, 300-ə yaxın iş yerinin açılması nəzərdə tutulmuşdur. İnvestisiya müsabiqələri vasitəsilə əvvəlki illərdə özəlləşdirilmiş və müqavilə öhdəliklərinin icrası başa çatdırılmış 3 səhmdar cəmiyyətinin səhmləri üzərində mülkiyyət hüquqları alıcılara keçmişdir.

Bu dövrdə əvvəlki illərdə özəlləşdirilmiş müəssisələr də daxil olmaqla, investisiya müsabiqələri vasitəsilə özəlləşdirilmiş müəssisələrə 14.6 mln. manata yaxın məbləğdə investisiya qoyulmuş, dövlət büdcəsinə birdəfəlik ödəniş qaydasında 8.5 mln. manat məbləğində vəsait köçürülmüş, müqavilə öhdəliklərinin icrası başa çatmış müəssisələrdə 374 iş yeri yaradılmışdır.

"Aqrarkredit" QSC Bank olmayan Kredit Təşkilatının və alternativ enerji istehsalı müəssisələrinin, o cümlədən külək və günəş elektrik stansiyalarının fəaliyyəti təhlil edilmişdir. Aparılmış təhlillərin nəticəsi olaraq, "Aqrarkredit" QSC Bank olmayan Kredit Təşkilatının dövlət müəssisə və obyektlərinin özəlləşdirməyə açılmasına dair hazırlanmış təkliflər Azərbaycan Respublikasının İqtisadi Şurasında müzakirəyə çıxarılmış, nəticə olaraq Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2022-ci il tarixli müvafiq sərəncamı ilə onlar özəlləşdirilməyə açılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"ndan irəli gələn məsələlərin icrası istiqamətində "Yeni özəlləşdirmə strategiyasının həyata keçirilməsi" fəaliyyət istiqamətinə uyğun olaraq yeni sahələrin özəlləşdirməyə açılması və idarəetməyə verilməsi ilə bağlı hazırlıq və təhlil işlərinə başlanılmışdır.

Özəlləşdirilməyə açıq elan edilmiş müəssisə və obyektlərə potensial investorların cəlb edilməsi məqsədilə 2022-ci il üzrə "Özəlləşmə Gündəliyi" hazırlaranaq Xidmətin özəlləşdirmə portalında yerləşdirilməsi təmin edilmişdir.

İnvestisiya müsabiqəsi vasitəsilə özəlləşdirilməsi nəzərdə tutulan müəssisələr haqqında ətraflı məlumatlar ingilis dilində hazırlanaraq "Özəlləşdirmə portalı"nda yerləşdirilmişdir.

### Dövlət əmlakının idarə edilməsi və ondan səmərəli istifadəyə nəzarət sahəsində

2022-ci il ərzində əvvəlki ilin yekunu olaraq 4255 müəssisə tərəfindən "Daşınmaz dövlət əmlakının qeydiyyat vərəqəsi"nə dair elektron qaydada hesabat təqdim edilmişdir. Daşınmaz əmlak Registrindən haqqında dövlət əmlakının balansdan-balansa verilmə, özəlləşdirmə, icarə və digər məqsədlər üçün 5380 dövlət əmlakına dair çıxarış sənədi hazırlanaraq verilmişdir.

"Dövlət əmlakının qorunub saxlanılması və ondan istifadə edilməsi vəziyyəti haqqında xüsusi hesabat forması"nı 2021-ci hesabat ili üçün təqdim etməli 4858 dövlət müəssisə və təşkilatından ümumilikdə 4850 (hesabat təqdim etməli olan dövlət müəssisə və təşkilatların 99.7%), o cümlədən 4823 elektron formada hesabat qəbul edilmişdir.

Xidmətin idarəçiliyində olan və nizamnamə kapitalında dövlətin payı olan 90 səhmdar cəmiyyəti və 27 dövlət müəssisəsində dövlət əmlakının, o cümlədən istifadələrində olan torpaq sahələrinin qorunub saxlanılması və səmərəli istifadə olunması vəziyyətinin öyrənilməsi ilə bağlı mütəmadi monitorinqlər keçirilmişdir. Qeyd edilən müəssisələr və "Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi" publik hüquqi şəxsinin idarəçiliyində olan 701 müəssisə və obyekt üzrə 670 inventarizasiya aparılmışdır.




Dövlət əmlakının idarə edilməsi funksiyalarının icrası ilə bağlı aidiyyəti dövlət orqanları və təşkilatlarının müraciətləri əsasında 5 dövlət müəssisəsinin təsis edilməsi, 1 dövlət müəssisəsinin yenidən təşkil edilməsi, 2 dövlət müəssisəsinin ləğv edilməsi, 5 dövlət müəssisəsinin nizamnaməsinin və ona dəyişikliklərin edilməsi barədə qərarlar qəbul edilmiş, dövlət qurum və təşkilatlarının tabeliyində hüquqi şəxslərin yaradılmasına, yenidən təşkili və ləğvinə, dövlət müəssisə və təşkilatlarının Nizamnaməsinə (Əsasnaməsinə) müvafiq dəyişikliklərin edilməsi, habelə yeni redaksiyada nizamnamələrinin təsdiq edilməsinə dair 165 müraciətə baxılıb müvafiq rəylər təqdim edilmişdir.

**Dövlət əmlakının icarəyə verilməsi və dövlət ehtiyaclarının ödənilməsi sahəsində**

Hesabat dövründə qeyri-yaşayış sahələrinin icarəyə verilməsinə dair 858 yeni icarə müqaviləsi bağlanılmış, 31.12.2022-ci il tarixə qeyri-yaşayış sahələri üzrə qüvvədə olan müqavilələrin sayı 2372 ədəd təşkil etmişdir.




Torpaq sahələrinin icarəyə verilməsinə dair hesabat dövrü ərzində 2961 sahə üzrə icarə müqaviləsi bağlanılmışdır. 31.12.2022-ci il tarixə torpaq sahələri üzrə qüvvədə olan müqavilələrin sayı 4404 ədəd təşkil etmişdir.




Cari dövrdə torpaq sahələrinin və qeyri-yaşayış sahələrinə dair toplam 3819-a yaxın yeni icarə müqaviləsi bağlanmışdır ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfədən çoxdur.

Qeyri-yaşayış sahələrinin və torpaq sahələrinin icarəyə verilməsindən dövlət büdcəsinə 24.8 mln. manat vəsait daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 53% artım təşkil edir.




2022-ci il üzrə dövlət əmlakının icarəyə verilməsi planı 155.3 faiz yerinə yetirilmiş və ötən illə müqayisədə əhəmiyyətli irəliləyiş əldə edilmişdir.



Dövlət və qeyri-hökumət təşkilatlarından qeyri-yaşayış və torpaq sahəsi ilə təmin olunmalarına dair 59 müraciət daxil olmuş, müraciətlərlə bağlı 91 təklif hazırlanaraq baxılması üçün aidiyyəti üzrə təqdim edilmişdir. Bu müraciətlərin 17-si üzrə həmin təşkilatların yerləşdirilməsi təmin edilmiş, bu təşkilatlara ümumilikdə 67953,29 kv.m. qeyri-yaşayış və torpaq sahəsi ayrılmışdır.

**Torpaqların idarə edilməsi, torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi sahəsində**

2022-ci ildə 39 müraciət üzrə 1197,09 ha torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncam layihələri hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir. Bundan 10 müraciət üzrə 617,75 ha torpaq sahəsi ilə bağlı sərəncam layihəsi, eyni zamanda, əvvəlki dövrlərdə Nazirlər Kabinetinə təqdim edilmiş 2714,93 ha torpaq sahəsi ilə bağlı 23 sərəncam layihəsi imzalanmışdır.




Dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin icarəyə verilməsinə razılıq bildirilməsi ilə bağlı 26355,68 ha torpaq sahəsi üzrə 278 müraciətə razılıq verilmiş, 50227,83 ha torpaq sahəsi üzrə 394 müraciətə yerquruluşu işlərinin nəticəsinə uyğun münasibət bildiriləcəkdir. Əlavə olaraq, əvvəlki dövrlərdə daxil olmuş müraciətlər əsasında 32752,43 ha torpaq sahəsi üzrə 202 müraciətə razılıq verilmişdir.




Dövlət mülkiyyətində olan qeyri-kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin icarəyə verilməsinə rəy bildirilməsi ilə bağlı 500,71 ha torpaq sahəsi üzrə 144 müraciətə müsbət rəy verilmişdir. Qalan 1101,54 ha torpaq sahəsi üzrə 231 müraciətə yerquruluşu işlərinin nəticəsinə uyğun münasibət bildiriləcəkdir. Əlavə olaraq, əvvəlki dövrlərdə daxil olmuş müraciətlər əsasında 107,99 ha torpaq sahəsi üzrə 62 müraciətə müsbət rəy verilmişdir.




Bələdiyyə mülkiyyətində olan torpaq sahələrinə dair hüquqların dövlət qeydiyyatına alınmasına rəy bildirilməsi ilə bağlı 13349,16 ha torpaq sahəsi üzrə 7179 müraciətə müsbət rəy verilmişdir. 2325,72 ha torpaq sahəsi üzrə 1136 müraciətə münasibət bildiriləcəkdir. Əlavə olaraq, əvvəlki dövrlərdə daxil olmuş müraciətlər əsasında 1902,36 ha torpaq sahəsi üzrə 762 müraciətə müsbət rəy verilmişdir.




Bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin hərrac və ya müsabiqəyə çıxarılmasına rəy bildirilməsi ilə bağlı 8190,81 ha torpaq sahəsi üzrə 2160 müraciətə müsbət rəy verilmişdir. 7.71 ha torpaq sahəsi üzrə 22 müraciətə münasibət bildiriləcəkdir. Əlavə olaraq, əvvəlki dövrlərdə daxil olmuş müraciətlər əsasında 2061,67 ha torpaq sahəsi üzrə 324 müraciətə müsbət rəy verilmişdir.




2022-ci ildə torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarəti tədbirləri çərçivəsində ölkənin şəhər və rayonlarında ümumilikdə 24141 olmaqla 3762 planlı və 20379 plandankənar monitorinqlər keçirilmişdir. Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tələblərini pozan fiziki və hüquqi şəxslər barəsində 2145 inzibati protokol yazılmaqla 981.3 min manat cərimə tətbiq edilmiş, ümumilikdə 647.6 min manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin olunmuşdur.




Monitorinqlər zamanı aşkar edilmiş pozuntu hallarının aradan qaldırılması istiqamətində səlahiyyətləri daxilində tədbirlər görülməsi üçün aidiyyəti dövlət orqanlarına 8320 məktub, o cümlədən Cinayət Məcəlləsinin 188-ci maddəsinə uyğun olaraq tədbirlərin görülməsi məqsədilə isə daxili işlər orqanlarına 2179 məktub ünvanlanmışdır.

**Normativ hüquqi tənzimləmə, dövlət proqramlarının və strategiyaların icrası sahəsində**

Hesabat dövründə normativ hüquqi təminat sahəsində 5-i Azərbaycan Respublikasının Qanun layihəsi, 15-i Azərbaycan Respublikası Prezidentinin Fərman layihəsi, 6-sı Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərar layihəsi olmaqla 26 layihə hazırlanmışdır. Bunlardan 1 qanun layihəsi qəbul edilmiş, 3 qanun layihəsi Azərbaycan Respublikasının Milli Məclisində qəbul edilərək imzalanmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edilmiş, 3 fərman isə imzalanmışdır.

Eyni zamanda, dövlət orqanları və qurumları tərəfindən hazırlanmış və münasibət bildirilməsi üçün təqdim olunmuş 242 layihəyə baxılmışdır.

Hesabat ilində dövlət əmlakının idarə edilməsi, qorunub saxlanması və ondan səmərəli istifadə olunması, özəlləşdirilməsi, habelə daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı və hərraclarla bağlı aidiyyəti üzrə Xidmətin cəlb olunduğu 11 897 məhkəmə işi olmuş, bunlardan 72-də iddiaçı, 9722-də  cavabdeh və 2106-da üçüncü şəxs qismində iştirak edilmişdir. İddiaçı və cavabdeh qismində 9794 məhkəmə işindən  1265-i udulmuş, 1295-i uduzulmuş, 1032 işlə bağlı mahiyyəti üzrə qərar qəbul edilməmiş, 145-i Xidmətin mənafeyinə toxunmayan işlər olmuş, 6057 məhkəmə işi isə davam etməkdədir.

**Hərracların təşkili sahəsində**

Hesabat dövründə dövlət əmlakının özəlləşdirilməsi məqsədilə ümumilikdə 60 hərrac təşkil edilmiş, bu hərraclarda 544 obyekt və daşınar əmlak satılmışdır. Hərraclar vasitəsilə özəlləşdirilmiş dövlət əmlakının ümumi satış qiyməti 19.2 mln. manat olmuşdur.




Bakı şəhəri üzrə kiçik dövlət müəssisə və obyektlərinin satışı ilə bağlı 41 hərrac keçirilmiş, 516 əmlak obyekti (3 kiçik dövlət müəssisəsi, 512 nəqliyyat vasitəsi və 1 ədəd hava nəqliyyatı vasitəsi) satılmışdır. Digər şəhər və rayonlar üzrə isə 12 hərracda 12 əmlak (10 kiçik dövlət müəssisəsi və 2 yarımçıq tikili) satılmışdır. Səhmdar cəmiyyətlərinin səhmlərinin satışı ilə bağlı hərraclarda 16 səhmdar cəmiyyətinin səhmləri satılmışdır.




Ümumilikdə, hərraclarda iştirak etmək üçün 2522 sifariş verilmişdir. Hərraclarda iştirak etmək məqsədilə “Elektron hərrac” proqram təminatı vasitəsilə 104 onlayn qoşulma baş tutmuşdur. Hərraca çıxarılmış əmlaklar üzrə 370 elektron sifariş qəbul edilmişdir.

2022-ci il üzrə hərraclarda satılan nəqliyyat vasitələrinin satış qiyməti 3768.8 min manat olmuşdur. Hesabat dövründə 285 nəqliyyat vasitəsinin satışı rəqabətli keçmişdir ki, bununla da dövlət büdcəsinə əlavə olaraq 522.7 min manat vəsaitin daxil olması təmin edilmişdir.

Dövlət nəfinə müsadirə edilmiş əmlakların satışı ilə bağlı 2 hərrac keçirilmiş və satılmış əmlakın dəyəri 347047 manat olmuşdur.

Bu dövrdə bələdiyyə mülkiyyətində olan 2332 torpaq sahəsinin mülkiyyətə və ya icarəyə verilməsi məqsədilə 56 şəhər və rayon üzrə 297 torpaq müsabiqə və hərracları keçirilmişdir.

Dövr ərzində ümumi dəyəri 1,5 mln manata yaxın olan 61 ədəd dövlət mülkiyyətinə keçən əmlak təhvil götürülmüşdür.

Yerin təkindən istifadə ilə bağlı müsabiqə və hərracların keçirilməsinə dair Hərracların Təşkili Mərkəzi publik hüquqi şəxs tərəfindən 10 hərrac keçirilmiş, ümumilikdə 52 lot üzrə start qiyməti 1005591 manat olan faydalı qazıntı yataqları 3650791 manata hərrac vasitəsilə istifadəyə verilmişdir.

**Daşınmaz əmlakın dövlət kadastrı və hüquqların dövlət qeydiyyatı, ünvan reyestrinin aparılması sahəsində**

Hesabat ilində ölkə üzrə 382319 daşınmaz əmlak obyekti üzərində mülkiyyət hüquqları dövlət qeydiyyatına alınmış, bu göstəricinin 85449-u (22.4%) ilkin, 296870-i (77.6%) isə təkrar qeydiyyata aid olmuşdur. Mülkiyyət hüquqlarının qeydiyyatı aparılan əmlaklardan 226324-ü (59.2 faizi) torpaq sahəsi, 94510-u (24.7 faizi) mənzil, 49371-i (12.9 faizi) fərdi yaşayış və bağ evi, 7706-sı (2.0 faizi) qeyri-yaşayış sahəsi, 3530-u (0.9 faizi) qeyri-yaşayış binası, 814-ü (0.2 faizi) əmlak kompleksi kimi müəssisələr, 63-ü (0.02 faizi) çoxmərtəbəli yaşayış binaları, 1-i isə çoxillik əkmə təşkil etmişdir.




2022-ci ildə 305493 daşınmaz əmlakın texniki inventarlaşdırılması aparılmış və texniki sənədlər (pasport və plan və ölçü) tərtib edilmiş, 72977 ipoteka müqaviləsi, 5448 yüklülük (icarə, istifadə) dövlət qeydiyyatına alınmış, daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara onların məhdudlaşdırılmasına (yüklülüyə) dair dövlət reyestrindən 808899 arayışı (ondan 774299-u və ya 95.7 faizi notariuslar tərəfindən edilmiş müraciətlərə aiddir) verilmişdir.




2022-ci il üzrə statistik göstəricilərin ötən ilin yekun göstəriciləri ilə müqayisəsi nəticəsində mülkiyyət hüquqlarının dövlət qeydiyyatı aparılmış daşınmaz əmlakların ümumi sayında 25.2 faiz, yüklülüyün (icarə istifadə) qeydiyyatında 27.1 faiz, daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara onların məhdudlaşdırılmasına (yüklülüyə) dair dövlət reyestrindən arayışların sayında 61.7 faiz, ipotekanın qeydiyyatında 35.7 faiz, inventarlaşdırma işləri üçün tərtib edilmiş texniki (pasport və plan ölçü) sənədlərin sayında 28.7 faiz artım, əhaliyə xidmətlə bağlı müxtəlif arayışların sayında isə 20.7 faiz azalma müşahidə edilmişdir.

Hesabat dövründə ölkə ərazisində, o cümlədən işğaldan azad edilmiş ərazilərdə daşınmaz əmlakın kadastrı sahəsində işlər davam etdirilmişdir (işğaldan azad edilmiş ərazilərdə kadastr sahəsində görülmüş işlərə dair ətraflı hesabat 8-ci bölmədə qeyd edilmişdir). Hesabat dövründə ümumilikdə 568462 ha ərazidə yerquruluşu işləri görülmüşdür. Bundan 500263 ha ərazidə yerquruluşu işləri dövlət sifarişləri əsasında yerinə yetirilmişdir. İşğaldan azad olunmuş 389109 ha ərazilərdə isə çöl-ölçmə işləri başa çatdırılmışdır. Torpaqların elektron kadastr uçotu layihəsi çərçivəsində uyğunsuzluqların aradan qaldırılması məqsədilə 1437 ha ərazidə dürüstləşdirilmə işləri yerinə yetirilmişdir.




Torpaq tədqiqatı üzrə 2022-ci ildə 480248.77 ha dövlət torpaqlarında irimiqyaslı çöl torpaq tədqiqatı işləri aparılmışdır. 2022-ci ilin 12 ayı ərzində ümumilikdə 1 384 933.30 ha torpaq tədqiqatı məlumatları TEKUİS-ə daxil edilmiş, torpaq və şorlaşma xəritələri tərtib edilərək onlara dair hesabatlar yazılır. Bundan 379984.95 ha dövlət torpaqları, 228564 ha çöl torpaq tədqiqatına hazırlıq işləri, 776384.35 ha işğaldan azad edilmiş ərazilərin torpaq tədqiqatı məlumatları emal edilərək TEKUİS-ə daxil edilmişdir.




Geobotaniki tədqiqatlar üzrə 309007.81 ha ərazidə iri miqyaslı çöl geobotaniki tədqiqat işləri aparılmışdır ki, bu işlər bütünlükdə işğaldan azad edilmiş əraziləri əhatə edir.




Hesabat dövründə ümumilikdə 646056 ha sahədə laboratoriya işləri yerinə yetirilmişdir. Bundan torpaq tədqiqatı üzrə 427001 ha sahədə, geobotaniki tədqiqat üzrə 219055 ha sahədə işlər yerinə yetirilmişdir.

Torpaqların bonitirovkası üzrə 269514 ha sahədə və iqtisadi qiymətləndirilməsi üzrə 257396 ha sahədə kameral qaydada işlər görülmüş TEKUİS bazasına daxil edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 271 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bələdiyyələrin Dövlət reyestrinə daxil edilən bələdiyyələrin xəritələrinin hazırlanması Qaydaları"na uyğun olaraq hesabat dövründə 284 bələdiyyənin xəritəsi hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Hesabat dövründə ölkənin şəhər, rayon mərkəzi və qəsəbələrdə 473, kənd yaşayış məntəqələrində 736 nəqliyyat infrastrukturu obyektləri müvafiq İcra Hakimiyyəti orqanları tərəfindən adlandırılmış və Ünvan Reyestri İnformasiya Sisteminə daxil edilmişdir. Ölkənin rayon və şəhərləri üzrə ümumilikdə Ünvan Reyestri İnformasiya Sisteminə (ÜRİS) daxil edilmiş məlumatlardan 57784 giriş, 32572 daxili ünvan məlumatlarının keyfiyyəti yoxlanılaraq təsdiq edilmişdir.




İl ərzində ödənişli və ödənişsiz əsaslarla AzPOS sisteminə ümumilikdə 256 istifadəçi qoşulmuşdur.

**İşğaldan azad edilmiş ərazilərdə görülmüş tədbirlər barədə**

Hesabat dövründə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nda əks etdirilmiş tədbirlər, o cümlədən torpaqların elektron kadastr uçotu, yerquruluşu, torpaq tədqiqatları, torpaqların idarə edilməsi və işğal nəticəsində dəymiş ziyanın müəyyənləşdirilməsi istiqamətində işlər davam etdirilmişdir.

Ölkənin işğaldan azad edilmiş 12005 km² yaxın ərazisinin peyk təsvirləri əsasında "Azərkosmos" PHŞ tərəfindən hazırlanmış ortofotoplanların vizual baxımdan keyfiyyəti yoxlanmış, eləcə də onların koordinat dəqiqliyinin yoxlanılması məqsədi ilə ümumilikdə 136 ədəd nöqtənin koordinatları ölçülmüşdür. Kameral şəraitdə, ölçülmüş nöqtələrlə xəritə üzərindəki müvafiq nöqtələrin uyğunluğu yoxlanmış, tələb olunan meyarlar üzrə müvafiq statistik göstəricilər hesablanmış və ortofotoplanların koordinat dəqiqliyi qiymətləndirilmişdir. Hazırda işğaldan azad edilmiş 12005 km² yaxın ərazinin hazırlanmış ortofotoplanları TEKUİS, NECAS, ÜRİS və Qarabağ informasiya sistemlərində baza istinad xəritələri kimi istifadə edilir.

Zəngilan rayonunun işğaldan azad edilmiş 4 yaşayış məntəqəsinin ümumilikdə 620 ha-nın pilotsuz uçuş aparatı vasitəsi (PUA) ilə aerofotoçəkilişləri aparılmış və toplanmış məlumatlar emal edilərək ortofotoplanlar hazırlanmışdır.

Yerquruluşu işləri üzrə işğaldan azad edilmiş ərazilərdə 389109.7 ha sahədə çöl-ölçmə işləri yerinə yetirilmişdir. Bu işlərin həcmi Cəbrayıl rayonu üzrə 50765, Qubadlı rayonu üzrə 79875.7 ha, Kəlbəcər rayonu üzrə 143990 ha, Laçın rayonu üzrə 43619 ha və Zəngilan rayonu 70860 ha olmuşdur.

Zəngilan rayonu üzrə 69906 ha, Kəlbəcər rayonu üzrə 155086.98 ha, Cəbrayıl rayonu üzrə 25157.01 ha, Qubadlı rayonu üzrə 62560.01 ha, ümumilikdə 312710 ha əraziyə aid məlumatlar emal olunaraq ilkin aralıq GİS bazası yaradılmışdır. Zəngilan (70860 ha) və Qubadlı (79875.7 ha) rayonları üzrə bütün işlər yekunlaşdırılaraq TEKUİS və AzCAD sistemlərinə miqrasiya edilmişdir.

İrimiqyaslı çöl-torpaq tədqiqatı işləri 283615.20 ha ərazini əhatə etmişdir. Həmçinin Zəngilan rayonunun 155.21 ha, Kəlbəcər rayonunun 98.40 ha, Qubadlı rayonunun 73.31 ha olmaqla hərbi deqradasiyaya uğramış ümumi 326.92 ha ərazidə tədqiqat işləri aparılmışdır. Kameral qaydada aparılmış işlərin ümumi həcmi 776384 ha olmuşdur. Zəngilan (45834.95 ha) rayonuna dair torpaq tədqiqatı işləri çərçivəsində əldə olunmuş məlumatlar TEKUİS-ə daxil edilmiş, Qubadlı rayonu (53761.81 ha) üzrə məlumatların daxil edilməsi davam etdirilir.

Geobotaniki tədqiqatlar üzrə 2022-ci il ərzində işğaldan azad edilmiş ərazilərdə 309007.81 ha sahədə irimiqyaslı çöl-geobotaniki tədqiqat işləri aparılmışdır. Kameral qaydada aparılmış işlərin ümumi həcmi 745178 ha olmuşdur. Zəngilan (27982.89 ha) rayonuna dair geobotaniki tədqiqatı işləri çərçivəsində əldə olunmuş məlumatlar TEKUİS-ə daxil edilmiş, Qubadlı rayonu (35046.89 ha) üzrə məlumatların daxil edilməsi davam etdirilir.

Torpaq və geobotaniki tədqiqatlar laboratoriyası üzrə hesabat dövründə 385523 ha torpaq sahəsində işlər görülmüşdür.

İşğaldan azad olunmuş ərazilərdə yerləşən torpaq sahələrinin ayrılmasına rəy bildirilməsi ilə bağlı Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən 189 obyekt (1176,84 ha) üzrə 89 müraciət daxil olmuş, bunlardan 113 obyekt (1172,84 ha) üzrə 65 müraciətə müsbət rəy verilmişdir. Qalan 76 obyekt (4,0 ha) üzrə 24 müraciətə yerquruluşu işlərinin nəticəsinə uyğun münasibət bildiriləcəkdir. Əlavə olaraq, əvvəlki dövrlərdə daxil olmuş müraciətlər əsasında 88 obyekt (3371,83 ha) üzrə 45 müraciətə müsbət rəy verilmişdir.

İşğaldan azad olunmuş ərazilərdə yerləşən 6668,26 ha torpaq sahəsinin icarəyə verilməsinə razılıq bildirilməsi ilə bağlı Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 19 müraciət daxil olmuş, bunlardan 1159,26 ha torpaq sahəsi üzrə 11 müraciətə razılıq və 251,0 ha torpaq sahəsi üzrə 4 müraciətə imtina verilmişdir. Qalan 5258 ha torpaq sahəsi üzrə 4 müraciətə yerquruluşu işlərinin nəticəsinə uyğun münasibət bildiriləcəkdir. Əlavə olaraq, əvvəlki dövrlərdə daxil olmuş müraciətlər əsasında 325,0 ha torpaq sahəsi üzrə 2 müraciətə razılıq verilmişdir.

İşğaldan azad edilmiş Zəngilan rayonu Ağalı kəndində 7 küçə, 1 meydan üzrə 322 giriş ünvanı və 4 daxili ünvan məlumatları təyin edilərək ÜRİS-ə daxil edilmiş, Laçın rayonunun 1 şəhər və 2 kənd üzrə 24, Şuşa şəhərində isə 57 küçə xəttinin faktiki vəziyyəti yerində dəqiqləşdirilərək ÜRİS-də müvafiq düzəlişlər aparılmışdır.

İşğaldan azad edilmiş bütün ərazilərdə (Şuşa, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan, Ağdam, Xocavənd, Tərtər, Xocalı, Kəlbəcər və Laçın rayonlarında) ilkin inventarlaşma işləri tamamlanmışdır. İşğal nəticəsində 448 yaşayış məntəqəsinin tamamilə dağıdıldığı və 225 yaşayış məntəqəsində az sayda əmlakın mövcud olduğu müəyyən edilmiş və müvafiq olaraq aktlar və arayışlar (pasportlar) tərtib olunmuşdur. Ümumilikdə 14081 daşınmaz əmlakın (12250 ədəd tikili və 1831 ədəd infrastruktur obyekti) çöl inventarlaşdırma işləri tamamlanmışdır. 1636 km avtomobil yolunun, 292 km elektrik verilişi, 45 km qaz təchizatı, 19 km su təchizatı xətlərinin, 249 km suvarma şəbəkəsinin ilkin inventarlaşdırılması başa çatdırılmışdır. Bundan əlavə, 849 103.97 ha torpaq sahəsi ortofoto xəritələr əsasında vektorlaşdırılaraq elektron məlumat bazasına daxil edilmişdir.

Laçın rayonunun əvvəlki dəhliz hissəsi üzrə 2022-ci ilin sentyabr ayı ərzində Laçın şəhəri və Zabux, Sus, Bəylik, Qızılca, Qarıkaha, Turşsu, Ağanus kəndlərində inventarlaşdırma işləri aparılmışdır. Aparılan ilkin inventarlaşdırma işləri nəticəsində ərazidə ümumilikdə 1355 ədəd daşınmaz əmlak (760 ədəd fərdi yaşayış evi, 10 ədəd çoxmənzilli yaşayış binası, 159 ədəd qeyri-yaşayış təyinatlı tikili və 426 ədəd köməkçi tikili) siyahıya alınmışdır.

İşğaldan azad olunmuş ərazilərdə dəymiş ziyanın müəyyən edilməsi məqsədilə yerli və mərkəzi icra hakimiyyəti orqanlarının, eləcə də digər dövlət, müəssisə və təşkilatlarının nümayəndələrinin iştirakı ilə işğala qədər mövcud olan və topoqrafik xəritələr üzərindən rəqəmsallaşdırılması mümkün olmuş 163863 ədəd daşınmaz əmlakdan (bina, tikili və qurğu), 144410-u təsbit edilərək Qarabağ Rəqəmsal Geoinformasiya Sisteminə (bundan sonra QRGS) miqrasiya edilmişdir.

İşğaldan azad olunmuş ərazilərdə dəymiş ziyanın müəyyən edilməsi və məhkəmədə sübut kimi təqdim edilə biləcək sənədlərin toplanması istiqamətində ƏMDX-nın xüsusi işçi qrupu tərəfindən Milli Arxiv idarəsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin arxivində 7 rayon və Şuşa şəhərində 1991-ci il tarixinə qədər mövcud olmuş daşınmaz əmlak obyektlərinə dair 13729 arxiv qovluğu araşdırılmış, 24750 sənəd aşkar edilərək, “Qarabağ Rəqəmsal Geoinformasiya Sistemi”nə daxil edilməsi üçün həmin sənədlərin surətləri götürülmüşdür.

Paralel olaraq Dövlət Film Fondundan 19, AzTV-dən isə 20 ədəd işğala məruz qalmış ərazilərdə işğaldan əvvəlki dövrlərdə aparılmış foto və film çəkilişlərinin arxiv materiallarının surətləri əldə olunmuşdur.

**Elektron xidmətlər və innovasiyaların tətbiqi sahəsində**

Hesabat dövrü ərzində İqtisadiyyat Nazirliyinin göstərdiyi xidmətlərinin tərkibində “dxr.az” portalına daxil edilmiş və ƏMDX tərəfindən göstərilən xidmətlərin 2020-2021-ci il üzrə “ASAN xidmət indeksi” üzrə həyata keçirilmiş qiymətləndirmənin nəticələri açıqlanmışdır. İqtisadiyyat Nazirliyi üzrə 47 xidmət, o cümlədən Xidmət üzrə 15 xidmət müvafiq meyarlar əsasında qiymətləndirilmişdir. Qiymətləndirmə nəticələrinə əsasən Nazirlik 65.03% göstərici ilə mərkəzi icra hakimiyyətləri arasında 4-cü yerdə qərarlaşmışdır.

Hesabat dövründə Xidmətin fəaliyyət istiqamətlərində Dövlət Xidmətlərinin Elektron Reyestrinə (dxr.gov.az) daxil edilmiş 46 xidmət üzrə hüquqi və fiziki şəxslərdən, bələdiyyələrdən, dövlət qurumlarından 2504640 müraciət daxil olmuşdur.




Torpaqların mühafizəsi üzərində dövlət nəzarətinin təmin edilməsi məqsədilə “Azərkosmos” ASC və digər tərəfdaş şirkətlərlə əməkdaşlıq edilməklə Torpaq Səthinin Monitorinq Sisteminin (TSMS) imkanları genişləndirilməkdədir. Respublika üzrə yeni təsdiq edilmiş iqtisadi rayonların sərhədləri TSMS-ə yerləşdirilmişdir. Sistem vasitəsilə rəqəmsal formatda tərtib edilən protokollarla bağlı məlumatlar “asanpay.az” saytının cərimə ödənişləri qrafasına və “E-Manat” ödəniş terminallarına inteqrasiya olunduğundan vətəndaş tərəfindən protokolun nömrəsi daxil edilməklə həm elektron qaydada, həm də ödəniş terminalı vasitəsilə ödəniş əməliyyatları həyata keçirilir.

Dövlət əmlakının mülkiyyətə və icarəyə verilməsi məqsədilə təşkil olunan hərraclarda iştirak üçün sifarişçi statusu almış və ya qalib olmuş şəxslərə SMS bildirişlərin (xəbərdarlıqların) avtomatlaşdırılmış formada göndərilməsi təmin edilmişdir. Elektron hərrac sisteminin təkmilləşdirilməsi ilə bağlı nəqliyyat vasitələrinin hərracları zamanı qalib olan şəxslərin protokollarının elektron formada çap edilməsi təmin edilmişdir.

Hesabat dövrü ərzində dövlət xidmətlərinin elektron formada göstərilməsi sahəsində fəaliyyətin genişləndirilməsinin təşkil edilməsi məqsədi ilə 15 növ xidmət (əməliyyat) üzrə bir sıra sənədlərin qəbulu və təqdim edilməsi tam elektronlaşdırılaraq real vaxt rejimində istifadəyə verilmişdir.

Torpaq sahələrinin texniki göstəricilərini özündə əks etdirən plan və ölçü sənədinin elektron üsulla tərtib edilərək vətəndaşlara təqdim edilməsi ilə bağlı texniki işlərin icrası artıq yekunlaşmış və “E-Plan və ölçü sənədinin yoxlanılması” adlı elektron xidmət ƏMDX-nın Elektron Xidmətlər Portalına (https://e-emlak.gov.az/eemdk/az/CheckEPassport) yerləşdirilmişdir.

“Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının tərtib edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 13 avqust tarixli 293 nömrəli Qərarına əsasən, ipoteka kağızının tərtib edilməsi, onun qeydiyyata alınması, habelə ipoteka kağızına xitam verilməsi ilə bağlı əməliyyatların həyata keçirilməsi məqsədilə ipoteka kağızının elektron sistemi hazırlanaraq istifadəyə verilmişdir.